# “QIZIL KİTAB”DA ƏBƏDİLƏŞƏN AD

## *Gənc rəssam Əli Cəfərin yaradıcılığı barədə düşüncələr...*




**Ziyadxan Əliyev**

*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*


Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev cənablarının ölkəyə başçılıq etdiyi illərdə müxtəlif rəssamlıq sərgilərində iştirak etməsi gözlənilməz sayılmasa da, onun 1995-ci ildə 9 yaşlı Əli Cəfərin Səttar Bəhlulzadə adına salonda təşkil olunan fərdi sərgisinə gəlişi çoxlarına qəribə göründü. Tədbirə dəvət olunan rəsmilərin əksəriyyəti sərgisi təşkil olunan rəssam haqqında geniş məlumata malik olmasalar da, ölkə başçısı ora özünəməxsus istedad sahibi ilə, onun qeyri-adi sənət dünyası ilə tanış olmağa getdiyini yaxşı bilirdi.

Sərginin açılışına toplaşan hər kəs o gün özü üçün yeni bir adı - Azərbaycan incəsənət məkanında parlamağa başlayan özünəməxsus istedad sahibini kəşf etmiş oldu. Həm ölkə başçısı, həm də onunla birlikdə bu sərgiyə tamaşa edən sənət xiridarları -xalq rəssamları Tahir Salahov və Mikayıl Abdullayev, sənətşünaslar Mürsəl Nəcəfov və Leyla Axundzadə balaca Əlinin sənətkarlığını yüksək dəyərləndirmişdilər. Ulu öndər sərgidən aldığı təəssüratı belə ifadə etmişdi: “Doqquz yaşlı uşağın belə əsərlər yaratması və sərginin təşkil olunması respublikamızın mədəni həyatında böyük hadisədir. Ümidvaram ki, bu, rəssamlıq sənətində, mədəniyyətimizdə yeni istedadın kəşfi deməkdir. Ümidvar olmaq istəyirəm ki, Azərbaycanda istedadlı rəssam yetişir və onu parlaq gələcək gözləyir”.

Pedaqoji fəaliyyəti boyu yüzlərlə gəncə sənətin sirlərini öyrədən görkəmli fırça ustası Mikayıl Abdullayev isə gördüklərindən təəccübünü gizlətməyərək “Milli mədəniyyətimiz tarixində hələ 9 yaşlı fitri istedadlı rəssamımız, Əli Cəfərimiz olmayıb. Məhz bu mübarək tapıntıya görə mən də özümü xoşbəxt sayıram. Qoy bizim xalq da XXI əsrdə dünya mədəniyyəti aləminə öz haqq sözünü böyük qürurla desin” fikrini səsləndirmişdi.

İndi o vaxtdan 20 il keçsə də, Əli Cəfər bizimlə söhbətində həmin dekabr gününü yaxşı xatırladığını və həmin an yaşadıqlarını ömrünün axırına kimi unutmayacağını söylədi. Gənc rəssam əlavə etdi ki, həmin tarixi görüş onu daha da həvəsləndirdi, yeni-yeni axtarışlara səslədi. Elə ulu öndər 2002-ci ilin oktyabrında Türkiyə Respublikasının milli bayramı günündə “Gülüstan” sarayında ikinci dəfə Əli Cəfərin növbəti sənət hesabatı ilə tanış olanda da artıq yaşının üstünə yaş gəlmiş gənc istedadın sənətin zirvəsinə doğru inamla addımladığına şahidlik etdi. Bu da nəticəsiz qalmadı. Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2002-ci il tarixli sərəncamı ilə “Əli Vaqif oğlu Cəfərovun adı “Qızıl kitab”a yazıldı və o, Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə layiq görüldü.

Gənc rəssamın sonrakı illərdə Azərbaycan Dövlət Filarmoniyasında (2005 və 2008), Azərbaycan Milli İncəsənət Muzeyində (2006 və 2009) və “Avropa” otelində (2007) təşkil olunan fərdi sərgilərini də onun bu yüksək dəyərləndirməyə yaradıcı cavabı hesab etmək olar...

Əgər Əli Cəfərin çox da uzun olmayan bioqrafiyasında yer almış məlumatları xatırlamalı olsaq, onda onun əvvəlcə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr pilləsində (2004-2008), sonra isə magistratura pilləsində (2008-2010) “qarfika” ixtisası üzrə təhsil aldığını qeyd etməliyik. Təhsilsonrası isə o, elə bir vaxtlar oxuduğu Akademiyada dərs dediyini söyləməliyik. 2011-ci ildə onun Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunması da onun professionallığına olan etimadın göstəricisidir.

İki yaşından rəsm çəkən, altı yaşında ilk fərdi sərgisini ictimaiyyətə təqdim edən Əli Cəfərin sonrakı illərdə təşkil olunan bir-neçə sərgisində nümayiş olunan əsərlərinin sayı minə yaxındır. Əksəriyyəti şəxsi kolleksiyalarda və xarici ölkə səfirliklərindədir. Beş qrafik əsəri isə ölkəmizin baş incəsənət məbədinin - Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasındadır.



Bu əsərlərin demək olar ki, hamısı təsviri sənətin qrafik növünə aiddir. Etiraf edək ki, bu sənət növü hər bir yaradıcının rəsmetmə bacarığını üzə çıxarmaq üçün gözəl sınaq vasitəsidir. Başqa sözlə desək, qrafik mədəniyyətin mövcudluğu hər bir rəssamın gözəllik duyumunu birə-beş artıran, əsərlərinin cəlbediciliyini və yaddaqalanlığını şərtləndirən mühüm bədii-texniki məziyyətdir. Bütün bunların Əli Cəfərin ən müxtəlif janrlarda çəkdiyi əsərlərində mövcudluğu da elə ilk baxışdan görünəndir.



Əfsanəvi at



Nağıl motivi

Əli Cəfər üçün mövzu və janr məhdudiyyəti yoxdur, desək, yanılmarıq. O, gördüklərini və təxəyyülündə canlandırdıqlarını bu janrların hər birində ifadə etməkdə çətinlik çəkmir. Bununla belə tarixi mövzuların ona daha doğma olduğunu söyləmək olar. Müxtəlif xalqların tarixinin uzaq-yaxın səhifələrindən “boylanan” qəhrəmanların şücaətləri Əli Cəfərin qrafik lövhələrində inandırıcı ifadəsini tapmışdır. Gənc rəssamın uşaq vaxtlarından bu günə kimi işlətdiyi cizgi improvizələri bu sahədə böyük təcrübəsi olan professionalları belə heyrətləndirməkdədir. Onun “Babək”, “1918-ci ildə türk ordusunun



Ovda

Azərbaycana gəlişi”, “Gecə ovu”, “Cəngavər, şeytan və ölüm”, “Şəhər uğrunda döyüş”, “Apokalipsis”, “Makedoniyalı İskəndər”, “Don Kixotun yürüşü”, “Həlledici an”, “Döyüş”, “Borodino” və s. lövhələri belə nümunələrdəndir.

Onun “Karvan”, “Cilovlanmamış atlar”, “Qoca ağac”, “Dovşan”, “Azman ağac” və digər bir neçə əsəri fərqli janrlarda çəkilsələr də, onların hər birində tamaşaçı diqqətini ovsunlayan bədii-estetik məqamlar, yüksək icra sənətkarlığı mövcuddur.

Əli Cəfərin qrafika manerası özünəməxsus, həm də çox orijinaldır. Belə ki, o, bir qayda olaraq kompozisiyalarını təşkil edən müxtəlif təsvirləri linear-bütöv xətt əvəzinə, cizgilər məcmusu ilə ifadə edir. Rəng gücünə və qalınlığına görə müxtəlif olan bu cizgilər məcmu şəklində tətbiq olunduğundan və cəlbedici estetik tutum aldığından kifayət qədər duyğulandırıcı baxılırlar.

Etiraf edək ki, bu cür yüksək sənətkarlığın nümayişinə müasir Azərbaycan təsviri sənət tarixində nadir rast gəlinir. Qənaətimizcə, gənc rəssamın əldə etdiyi belə bir sənət uğurunun respublika çərçivəsindən kənara çıxarılmasına böyük ehtiyac var. Yaxşı haldır ki, Əli Cəfərin sənət dünyasında bədii görkəm almış tarixi həqiqətlər xalqımızın qan yaddaşında əbədiləşən şərəfli keçmişimizin təbliğinə yönəli davamlı yaradıcılıq axtarışlarının ifadəsidir.

Zamanında böyük istedadı Əli Cəfərin yaradıcı potensialı bu gün də sənət xiridarlarını təəccübləndirmək gücündədir. Odur ki, belə bir qiymətli bədii-mənəvi dəyəri - “Əli Cəfər fenomeni”nin beynəlxalq miqyasda təqdimatında gecikməməliyik...


| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Təsisçi: Sona VƏLİYEVA | Baş redaktor: İlham QULİYEV | Ünvan: Bakı ş. Mətbuat prospekti, 529-cu məhəllə, 25-ci bina Telefon: 510-61-92, “432-88-45, Faks: 510-61-93 E-mail: kaspiqazeti@gmail.com | Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Lisenziya №022264, Qeydiyyat №V 64 | Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib. Bazar və bazar ertəsindən başqa hər gün çıxır. | Tiraj: 5000 | *Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər* |